

# Carçı

2011-ci ildən
№66
Aprel/ 2024

Carçı
"ATƏŞGAH" SIĞORTA QRUPUNUN
RÜBLÜK JURNALI

№ 66
APREL/ 2024

R Ü B L Ü K   J U R N A L

AtəşgahSığorta

# MÜNDƏRİCAT



## Güclü komandanın, güclü rəhbəri!

səh. 3

Siz də jurnalımızın müəllifi və ya aktiv üzvü ola bilərsiniz. Özünüzü yeni sahədə sınayın!

Biz yeni fikir və təkliflərə açığıq.

İstək və təkliflərinizi elektron ünvanımıza göndərin:

**pr@ateshgah.com**

Hazırki nüsxədə əməyi keçənlər:

L. Babayeva
S.Quliyeva
Ş. Həsənsoy
S. Məmmədova

Güclü komandanın, güclü rəhbəri!
**səh. 03**

Ömrün yeni baharı!
**səh. 05**

Xalqın sevinci sevincimiz,
kədəri kədərimizdir!
**səh. 06**

“HR İnstitut”la əməkdaşlıq
**səh. 07**

“1 st L&D Forum”
**səh. 07**

“World HR Forum”
**səh. 07**

Caspian Energy Club-ın təşkil etdiyi “Logistics & Trade" tədbiri
**səh. 07**

DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində tədbir
**səh. 08**

“Vergi və Mühasibatlıq Zirvəsi 2024” uğurla yekunlaşdı!
**səh. 9**

Partnyor Satışlarının İnkişafı Departamentinin əməkdaşlarının tədbirlərdə iştirakı
**səh. 9**

“Sığortanın əsasları” kursu
**səh. 10**

“Zamanın idarə olunması” və “Effektiv kommunikasiya” kursları
**səh. 10**

“Tənzimləmənin əsasları “ kursu
**səh. 10**

“Kompüter savadlılığı və informasiya təhlükəsizliyi” təlimi
**səh. 10**

Tələbələrə dəstək mənəvi borcumuzdur!
**səh. 11**

SAT Group-la əməkdaşlıq
**səh. 11**

Təbiətə qayğı , Vətənə sevgi deməkdir!
**səh. 12**

“8 Mart” Beynəlxalq qadınlar günü!
**səh. 13**

Daxili Audit Xidmətinin rəhbərindən AZTV-ə müsahibə!
**səh. 13**

“Atəşgah” Sığorta Şirkətində Novruz sevinci!
**səh. 14**

Novruza aid maraqlı faktlar
**səh. 15**

Xeyirxahlıq, şəfqət və mərhəmət ayı!
**səh. 16**

# Güclü komandanın, güclü rəhbəri!



26 yanvar 2024-cü il tarixində Azərbaycanın Respublikasının Rusiya Federasiyasındakı ticarət nümayəndəsi, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) "Ətraf mühitin idarə edilməsi və ekologiya sahəsində beynəlxalq kompleks problemlər Kafedrası"nın təsisçisi Ruslan Əliyevin AZƏRTAC-a verdiyi müsahibəsində Azərbaycan-Rusiya iqtisadi-ticari münasibətləri, yeni enerji texnologiyaların inkişafı sahəsində Azərbaycanın potensialı, Azərbaycanda BMT-nin İqlim dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası COP29-un keçirilməsi haqqında danışıb.

– Ötən il ərzində Bakı ilə Moskva arasında iqtisadi-ticari əlaqələrin inkişafını necə qiymətləndirirsiniz?

– 2023-cü il "2018-2023-cü illər üçün Azərbaycan-Rusiya əməkdaşlığının əsas inkişaf istiqamətləri üzrə Yol xəritəsi" ilə müəyyən edilmiş tədbirlərin həyata keçirilməsi baxımından yekun il olub. Bu dövr ərzində Azərbaycan-Rusiya iqtisadi-ticari münasibətlərinin sabit dinamikası təmin edilib, iki ölkə arasında ticarət dövriyyəsi 2017-ci ilə nisbətən iki dəfədən çox artıb və ötən il 4,3 milyard dolları ötüb.

Bundan başqa, 2023-cü ildə Azərbaycan ilə Rusiya arasında ümumi yük daşımalarının həcmi 2017-ci ilə nisbətən 87 faiz,o cümlədən tranzit yüklərin həcmi demək olar ki, 4 dəfə artıb. "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi (BND) üzrə yük daşımaları 2017-ci ilə nisbətən 44 faiz artıb.

– Siz MDBMİ-nin ətraf mühitin idarə edilməsi və ekologiya sahəsində beynəlxalq kompleks problemlər kafedrasının yaradıcısısınız. Bu il Azərbaycanda BMT-nin İqlim dəyişiklikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un keçirilməsini necə qiymətləndirirsiniz?

–Haqlısınız, 2010-cu ildə mənim təşəbbüsümlə MDBMİ-nin Elmi Şurası MDBMİ-nin rektoru Anatoli Torkunovun dəstəyi ilə ilk gündən son vaxtlara qədər rəhbərlik etdiyim Ətraf mühitin idarə edilməsi və ekologiya sahəsində beynəlxalq kompleks problemlər kafedrasının yaradılması haqqında qərar qəbul edib. O zaman bir çoxları xüsusən beynəlxalq siyasət və beynəlxalq münasibətlər kontekstində bu təşəbbüsü təəccüb və anlaşılmazlıqla qarşıladı. Lakin uzun illərdən sonra əmin olduq ki, ekoloji problemlər beynəlxalq gündəmdə əsas məsələlərdən birinə çevrilib.

Bunun parlaq sübutu 150-dən çox dövlət və hökumət başçılarının iştirakı ilə ötən il Dubayda keçirilmiş genişmiqyaslı BMT-nin İqlim dəyişiklikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28 olub. Qeyd edilməlidir ki, son illərdə konfrans qazıntı yanacağı ixracatçıları olan, lakin "yaşıl" enerjiyə də fəal şəkildə sərmayə qoyan ölkələrdə keçirilir.

Dünya ölkələrinin COP29-un Bakıda keçirilməsi barədə yekdil qərarı Azərbaycanın iqlim dəyişikliklərinin qarşısının alınması sahədə fəaliyyətinə verilən yüksək qiymətdir.
– Azərbaycanın yeni enerji texnologiyalarının inkişafı sahəsində potensialını necə qiymətləndirərdiniz?
– Azərbaycanın enerji siyasətinin əsas istiqamətlərindən biri əməliyyat dekarbonizasiya tədbirlərinin tətbiqi ilə "yaşıl" inkişafı və neft və qaz layihələrinin səriştəli icrasını özündə birləşdirən enerji keçidinin təmin edilməsinə balanslaşdırılmış yanaşmadır. Külək və günəş enerjisi sahəsində yeni irimiqyaslı layihələrin həyata keçirilməsi yüksək texnologiyalı enerji saxlama sistemlərinin tətbiq edilməsi ilə müşayiət olunur. Ümumilikdə, ölkədə 2030-cu ilə qədər bərpa olunan enerji mənbələri sahəsində 7 GVt istehsal gücünün yaradılmas planlaşdırılır, bu da Azərbaycana Avropaya "yaşıl" enerjinin aparıcı ixracatçılarından biri olmaq imkanı verəcək. Bu məqsədə nail olmaq üçün müvafiq ixracat infrastrukturu – "Black Sea Energy" Qara Dəniz sualtı kabelinin yaradılması üzrə işlər aparılır. Bu xətt Azərbaycanın ən böyük külək və günəş elektrik stansiyalarını Gürcüstan vasitəsilə Avropa ölkələrinin enerji sistemi ilə birləşdirəcək. Azərbaycanda həyata keçirilən neft-qaz layihələrinin karbon izinin azaldılması çərçivəsində karbontutma, onun istifadəsi və saxlanması, həmçinin hidrogen və ammonyak istehsalı üzrə layihələrinin həyata keçirilməsi böyük əhəmiyyət kəsb edir.Prezident İlham Əliyev, enerji siyasətinin əsas prioritetləri qismində bərpa olunan enerjinin istehsalı və nəqlini qeyd edərək, 2024-cü ili Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edib.
Həmçinin Prezidentin "yaşıl" enerji zonası konsepsiyasına uyğun olaraq, Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarının inkişafı barədə qərarı dünyada yüksək qiymətləndirilir.

– Həqiqətən, hazırda enerji keçidi və iqlim dəyişiklikliyi mövzusu inanılmaz dərəcədə aktuallaşır …

– Bəli, məsələn, mənim üçün hazırda siyasi proseslərin formalaşdırılması nöqteyi-nəzərindən qlobal enerjidə transformasiya prosesləri mövzusu çox maraqlıdır. Enerji keçidi, davamlı inkişaf və qlobal iqlim gündəliyinin enerji siyasəti və diplomatiya ilə əlaqəsi nədir?
Bu mövzular müxtəlif nöqteyi-nəzərdən "Qlobal iqtisadiyyatın dekarbonizasiyası XXI əsrdə enerji şirkətlərinin strategiyalarının əvəzlənməsi amili kimi"; "Müasir dünyada ekologiya"; "Enerji keçidi Xəzər regionu ölkələrinin davamlı enerji inkişafının amili kimi" və digər monoqrafiyalarımızda nəzərdən keçirilir. Hazırda mən "Xəzər regionu dövlətlərinin davamlı enerji inkişafı diplomatiyası" mövzusunda doktorluq dissertasiyası üzərində işi başa vururam.




– Elmi cəmiyyətin nümayəndəsi və ekspert kimi sizə daha bir sualım var: Bakıdakı COP29-u necə görürsünüz?

– Fikrimcə, COP29-un Bakıda keçirilməsi iki məqsədə xidmət edir. Birincisi, Azərbaycanın timsalında konfrans iştirakçıları "yaşıl" enerjiyə tədrici keçidlə bağlı öz planlarını işləyib hazırlaya bilərlər. İkincisi, dünya bazarına neft-qaz resurslarının tədarükçüsü mövqeyindən çıxış edərək, daha mötədil və yumşaq enerji keçidinə səsləyərək, Azərbaycan dünyaya qazıntı yanacağından radikal imtina edilməsinin mümkün nəticələrini izah edə bilər. Prezident İlham Əliyev təbii qaz və bərpa olunan enerji mənbələri arasında sinerji yaratmaq ehtiyacını vurğulayır və onları vahid kompleks kimi qəbul etməyi təklif edir.

Beləliklə, COP29 konfransı ölkəmizin nailiyyətlərini nümayiş etdirmək üçün gözəl fürsət olacaq və Azərbaycanın dünyada nüfuzunun daha da möhkəmləndirilməsinə töhfə verəcək.

# Ömrün yeni baharı!

Yüksək insani mədəniyyətə, zəngin elmi biliyə və ziyalılıq etikasına, habelə uzun illər cəmiyyət arasında böyük hörmət və nüfuza sahib olan Ruslan Əliyev ömrünə daha bir il əlavə olundu! Bu münasibətlə, 2 fevral 2024-cü il tarixində “Atəşgah” Sığorta Şirkətinin Direktorlar Şurasının sədri Ruslan Əliyev və bir sıra şirkət rəsmilərinin , o cümlədən xarici qonaqların iştirakı ilə “Dostluq ” görüşü keçirilib. Görüş zamanı qonaqlar Ruslan Əliyevi doğum günü münasibətilə səmimi qəlbdən təbrik edib, ona sağlam, uzun və xoşbəxt həyat arzu ediblər. Tədbirdə şirkətin fəaliyyətinin gələcək inkişaf mexanizmi ilə bağlı da bir çox mühüm və maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Maraqlı təbrik və çıxışları ilə yadda qalan tədbirin sonunda səmimi görüşə görə təşəkkürlərini bildirən qonaqlar, dostluq münasibətlərindən məmnunluq hissi keçirdiklərini qeyd etdilər.







# Xalqın sevinci sevincimiz, kədəri kədərimizdir!

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, Bakıda sovet ordusu tərəfindən dinc əhaliyə qarşı dəhşətli kütləvi qırğın hadisəsi törədildi. Bu qanlı hadisənin törədilməsində əsas məqsəd öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, istiqlaliyyət, azadlıq və suverenlik istəyində olan Azərbaycan xalqının iradəsini qırmaq, insanların müstəqillik arzularını puç etmək idi. Sovet imperiyası günahsız insanlara qarşı misli görünməmiş qəddarlıq nümayiş etdirsə də nə istəyinə nail ola, nə də milli qürurumuzu qıra bilmədi. Həmin gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya bəyan etdi! Milli birlik və vətənpərvərliyin simvoluna çevrilmiş 20 Yanvar faciəsi eyni zamanda xalqımızın milli müstəqillik və azadlıq uğrunda mübarizəsinin, həmçinin yenilməz iradəsinin bariz nümunəsi kimi əbədi yaddaşımıza həkk olundu.





Hər il faciənin ildönümü ilə əlaqədar milyonlarla insan paytaxtın ən yüksək zirvəsində salınan Şəhidlər Xiyabanını ziyarət edir, şəhidlərin əziz xatirəsini qururla anır. Əsrlər keçərək, nəsillər dəyişəcək. Lakin 20 Yanvar şəhidlərinin xatirəsi əbədi olaraq hər bir Azərbaycan vətəndaşının qəlbində yaşayacaq. Hər zaman mənəvi dəyərlərə və tarixi kimliyə sadiq olan “Ateşgah” Sığorta Şirkəti bu il də ənənəyə sadiq qalaraq, yanvar ayının 20-də Ümumxalq Hüzn Gününün 34-cü ildönümü ilə əlaqədar şəhidlərin əziz xatirəsini yad etmək üçün Şəhidlər Xiyabanını, o cümlədən “Əbədi məşəl” abidəsini ziyarət edərək, şəhid məzarlarına gül dəstələri qoyublar.



# "HR İnstitut"la əməkdaşlıq



Artıq 2024-cü ilin ilk üç ayı geridə qaldı. "Atəşgah" Sığorta Şirkəti olaraq qeyd olunan dövr ərzində bir sıra qabaqcıl işlərə və yeniliklərə imza ataraq, uğurlar əldə etmişik. Təbii ki, qazanılmış uğurlarda şirkətin Direktorlar Şurasının sədri Ruslan Əliyev başda olmaqla, peşəkar, məsuliyyətli və əzmkar komandanın rolu böyükdür.
Qeyd olunan şəxsi keyfiyyətləri özündə əks etdirən yüksək motivasiyalı və peşəkar komandadan ibarət şirkət üçün əməkdaşlarının inkişafı çox önəmlidir. Bu məqsədlə şirkət, müvafiq sahələr üzrə əməkdaşlarına bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi istiqamətində mütəmadi təlim, tədbir və görüşlərdə iştirak imkanı yaradır.

"Atəşgah" Sığorta Şirkəti İnsan Resurslarının idarə olunması sahəsində mütərəqqi yanaşmaları təbliğ etmək və iş yerində insan resurslarının idarə edilməsi üzrə ən müasir təcrübələri yaratmaq məqsədilə, 25 yanvar 2024-cü il tarixində HR institutun direktoru Emil Hüseynov və həmkarı Aytən Hüseynova ilə şirkətimizin rəhbər şəxsləri Sevinc Məmmədova, Emiliya Mailova və İlyas Əliyev arasında görüş baş tutub. İnsan Resurslarının İdarə edilməsi şöbəsinin təşkilatçılığı ilə baş tutan görüşdə, şirkətimizdə insan resurslarının idarə edilməsi və inkişafı, bu sahə üzrə tətbiq olunan ən son yeniliklər və eləcə də gələcəkdə iki şirkət arasında əlaqələrin qurulmasından söhbət açılıb.




## "1st L&D Forum"

27 Yanvar 2024-cü il tarixində Azərbaycan "HR İnstitut" və "L&D Community"nin təşkilatçılığı ilə ölkəmizdə ilk öyrənmə və inkişaf (Learning & Development) forumu –"1st L&D Forum" adlı tədbir keçirilmişdir. Forumda bir sıra xarici və yerli şirkətlərin peşəkar nümayəndələri tərəfindən dünyada baş verən "Öyrənmə və İnkişaf " sahəsi üzrə ən son yeniliklərdən bəhs edilib. Tədbirdə "Atəşgah" Sığorta Şirkətinin İnsan Resurslarının idarə edilməsi şöbəsinin Təlim və İnkişaf üzrə əməkdaşı Samirə Quliyeva da iştirak edib.

## "World HR Forum"




"HR İnstitut" tərəfindən təşkil edilən növbəti "World HR Forum" adlı tədbir fevral ayın 28-nə təsadüf etdi. Qeyd edək ki, ölkəmizdə ilk dəfə keçirilən tədbirdə "HR –ın Atası" adlandırılan Devid Olson Ulrixlə yanaşı bir çox tanınmış xarici, habelə yerli şirkətlərin İnsan Resursları üzrə rəhbər və peşəkar nümayəndələri də iştirak etdilər. Tədbir zamanı dünyada İnsan Resursları sahəsində tətbiq olunan yeniliklər, müasir innovasiyalar və texnologiyaların inkişafı üzrə bir çox mühüm məsələr müzakirə edilmişdir. İnsan Resurlarının inkişafını hədəfləyən qlobal forumda, şirkətin təmsilçiləri qismində İnsan Resurslarının idarə edilməsi şöbəsinin müdiri Emiliya Mailova, eləcə də şöbənin digər xanım əməkaşları Könül Ləbibova və Samirə Quliyeva iştirak ediblər.

## Caspian Energy Club-ın təşkil etdiyi "Logistics & Trade" tədbiri




Dünyanın 50 ölkəsindən 5000-dən çox şirkəti birləşdirən təşkilat, Caspian Energy Club- ın yanvar ayının 31-də təşkil etdiyi "Logistics & Trade" adlı tədbirdə, "Atəşgah" Sığorta Qrupunun üç nəfərdən ibarət rəhbər şəxsləri Vüqar Hüseynli, Şəbnəm Bəşirova və İlyas Qasımov iştirak ediblər. Tədbirin keçirilməsində əsas məqsəd, Azərbaycanda və Caspian Energy Club-ın fəaliyyət göstərdiyi digər ölkələrdə investisiya və işgüzar mühitin yaxşılaşdırılması, həmçinin B2G, B2B və B2C formatlarında dialoqların stimullaşdırılmasından ibarət olub. Caspian Energy Club-ın fəaliyyətinin 25-ci il dönümü ilə əlaqədar keçirilən növbəti tədbir , 29 fevral 2024-cü il tarixində baş tutmuşdur. "Year of solidarity for a green world" adlanan tədbirdə şirkətimizin Orta biznes ilə iş şöbəsinin əməkdaşı Araz Alaslanlı iştirak etmişdir.

# DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində tədbir

Qarşıya qoyulan məqsədlərə çatmaq üçün sürətli öyrənmək, sürətli düşünmək, sürətli paylaşmaq və əlaqələr yaratmaqla hədəflənən əsas məqsədlərimizə çata bilərik. Sözsüz ki, bir şirkət olaraq dövlət tərəfindən təşkil olunan genişmiqyaslı tədbirlərdə iştirakımız çox vacibdir!

Fevral ayının 22-də DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində təşkil olunan tədbirdə çıxış edən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev cənab Prezident İlham Əliyevin tapşırıqları əsasında əhalinin sosial müdafiəsinin gücləndirilməsi, həmçinin həssas qrupların qayğı ilə əhatə olunması istiqamətində aparılan ardıcıl sosial islahatları və əldə olunan sosial nailiyyətləri diqqətə çatdıraraq, aktiv məşğulluq, o cümlədən özünüməşğulluq proqramlarının ildən-ilə genişləndiyini bildirərək, məşğulluğun təminatı istiqamətində görülən işlər barədə söhbət açmışdır.

Tədbirdə bir sıra hökumət və qeyri-hökumət qurumları, eləcə də işəgötürənlər iştirak ediblər. İştirakçı şirkətlər sırasında Azərbaycan Sığorta bazarının liderlərindən olan "Ateşgah" Sığorta Şirkətinin İdarə Heyətinin sədri cənab Tahir Kazımov, eləcə də Marketinq və İctimaiyyətlə Əlaqələr şöbəsinin aparıcı mütəxəssisi Kənan Cəfərov iştirak ediblər.

Tədbirdə 11 nominasiya üzrə sosial tərəfdaşlara mükafatlar təqdim edilib. Belə ki, şəhid ailələri üzvlərinin, müharibə iştirakçılarının, əlilliyi olan şəxslərin, qadınların, gənclərin, pensiya yaşına iki ildən az qalmış şəxslərin və s. məşğulluğunun təminatına dəstək verən ən aktiv özəl sosial, habelə "Əmək və Məşğulluq" altsistemi üzərindən göndərişlər əsasında ən çox əmək müqaviləsi bağlayan və bu altsistemə ən çox vakansiya yerləşdirən özəl sosial tərəfdaşlara mükafatlar təqdim edilib.





# “Vergi və Mühasibatlıq Zirvəsi 2024” uğurla yekunlaşdı!



Çağdaş dövrümüzün yeni tələblərinə əsasən insanlar düşünürlər ki, texnologiyanın inkişafı və çoxsaylı mühasibat proqramlarının meydana çıxması mühasibat uçotunun köhnəlməsinə səbəb olacaq. Əslində isə analitik yanaşmanın artması və dataların idarə edilmə ehtiyacı mühasiblərə olan tələbi daha da artırır. Peşəkar və ixtisaslaşmış mühasiblər yeni texnologiyaların da köməyi ilə şirkətin aparıcı şəxsləri olmağa davam edirlər. Bu məqsədlə mühasiblərin peşə biliklərinin inkişaf etdirilməsi istiqamətində dünyada, eləcə də ölkəmizdə bir sıra mühasibatlıq tədbirləri təşkil edilməkdədir.

16 mart tarixində 3 moderator və 14 spikerin təqdimatında, 600 nəfərdən ibarət şirkət nümayəndələrinin iştirakı ilə "Vergi Məcəlləsi – 2024", "Vergi riskləri", eləcə də "Maliyyə hesabları və uçot" mövzuları üzrə yerli kadrların daha da təkmilləşdirilməsini hədəfləyən tədbirdə, “Atəşgah” Sığorta Şirkətininin baş mühasibi Elman Qasımov, “Atəşgah Həyat” Sığorta Şirkətininin baş mühasibi Mübariz Kasumov və mühasib Mirhüseyn Seyidov iştirak ediblər.

# Partnyor Satışlarının İnkişafı Departamentinin əməkdaşlarının tədbirlərdə iştirakı

2024-cü ilin ilk rübündə baş tutan mühüm tədbirlər siyahısında Partnyor Satışlarının İnkişafı Departamentinin “Avtosalonlar” bölməsinin əməkdaşları, Tural Kələntərli, Sevil Quluzadə, Fatimə Eyvazova, Ramin Mehdizadə, Oleq Qasımov və Xəyal Rüstəmov tərəfdaşımız olan “Toyota” brendinin yeni “C-HR” modelinin və Azərbaycan avtomobil bazarına yeni daxil olan “Lynk&Co” brendinin təqdimat mərasimində iştirak ediblər.Tədbir çərçivəsində yeni avtomobil brendi ilə tərəfdaşlıq edilməsinə dair razılıq əldə edilib. Daha sonra isə tərəfdaşımız “Nurgün Motors”un tərkibində fəaliyyət göstərən “Nissan” brendinin restavrasiya edilmiş yeni avtosalonunun açılış mərasimi olub.






# “Sığortanın əsasları” kursu



Şirkətimiz hər zaman karyerada yüksəliş qazanmaq istəyən əməkdaşlar üçün unikal və çox geniş imkanlar yaratmaqla, təlim-tədris proqramları təşkil etməkdə davam edir. Hər il olduğu kimi əməkdaşların karyera yüksəlişinə təkan vermək məqsədilə, yanvar ayından başlayaraq bir sıra kurs və təlimlərə start verildi.
Bu məqsədlə, “Ateşgah” Sığorta Şirkətinin Direktorlar şurasının və Təşkilati Dayanıqlı İnkişaf Komitəsinin üzvü, eləcə də təlim sisteminin rəhbəri Namiq Xəlilovun rəhbərliyi ilə yanvar ayının 4-ü “Sığortanın əsasları” adlı kurs fəaliyyətə başladı. “Ateşgah” Sığorta Qrupunun inkişaf strategiyasının yeni təlim, təkmilləşdirmə və karyera sisteminə uyğun olaraq, 50 əməkdaşın iştirakı ilə keçirilən təlim, sığorta sahəsində olan ən son mühüm biliklərin daha da genişləndirilməsi istiqamətində aparılıb. Yekun olaraq, 4 aprel tarixində kurs iştirakçılarının qiymətləndirilməsi istiqamətində imtahan təşkil olunub. Test üsulu ilə 3 saat davam edən imtahanda, iştirakçılara biliklərini nümayiş etdirmələri üçün bütün zəruri şərait yaradılmışdır.

# “Zamanın idarə olunması” və “Effektiv kommunikasiya” kursları



Mart ayının 15-i Mühüm Müştərilərlə İş şöbəsinin müdiri Vüqar Hüseynlinin təqdimatında “Zamanın idarə olunması” (Time Management) adlı təlim keçirilib. İdarə Heyətinin üzvləri və şirkətin rəhbər şəxsləri üçün nəzərdə tutulan təlimdə Tahir Kazımov, Orxan Rzayev, Yusif İmamverdiyev, Şəfəq Həsənova, Orxan Şirinli, Ayla Mustafayeva, Xumar İmamverdiyeva və Sevinc Məmmədova iştirak ediblər. Təlimin əsas məqsədi müasir təlim metodlarından isifadə etməklə zaman idarəetməsi texnikalarının praktiki olaraq nümayiş etdirilməsi olub.

11 mart tarixindən başlayaraq, Vüqar Hüseynlinin rəhbərliyi ilə tədris olunan “Effektiv kommunikasiya” kursu da şirkət əməkdaşları üçün çox faydalı oldu.

# “Tənzimləmənin əsasları“ kursu



Mart ayının 6-dan, 18-nə qədər Əmlak sığortası növləri üzrə Zərərlərin Tənzimlənməsi idarəsinin rəhbər şəxsləri, Nigar Yarməmmədova, İltimas Mirzəyev, Faiq Bağırov və Maarif Mirzəyev tərəfindən “Tənzimləmənin əsasları” adlı marifləndirici kurs keçirilib. “Ateşgah” Sığorta Qrupunun inkişaf strategiyasının yeni təlim, təkmilləşdirmə və karyera sisteminə uyğun olaraq keçirilən bu kursların məqsədi sığorta sahəsindəki biliklərin daha da mükəmməlləşdirilməsidir.

# “Kompüter savadlılığı və informasiya təhlükəsizliyi” təlimi



Müasir dövrdə informasiya resurslarının və texnologiyalarının rolunun cəmiyyətin, eləcə də insanların  həyatında artması informasiya təhlükəsizliyi məsələlərini ön plana çıxarır. Dövrün tələbinə uyğun olaraq, informasiya təhlükəsizliyi üzrə mütəxəsislərə tələbat dayanmadan artır. Sözsüz ki, bu cür peşəkar şəxslərin təcrübəsindən yararlanmaqda fayda var.

Şirkətimizin İnformasiya təhlükəsizliyi üzrə rəhbəri Telman Hacıbutayev Baş ofis və İçərişəhər ofisinin əməkdaşları üçün “Kompüter savadlılığı və informasiya təhlükəsizliyi” adlı silsilə təlimlər təşkil edib. Təlimdə şirkət daxilindəki informasiya resurslarının qorunması, habelə  informasiya resurslarından istifadə zamanı təhlükəsizlik təbdirlərinin tətbiqi və tənzimlənməsinə dair məsələlərə toxunulub.

# Tələbələrə dəstək mənəvi borcumuzdur!

Ölkənin qabaqcıl sığorta şirkəti olan "Atəşgah" Sığorta Şirkəti hər zaman gənc nəslin fəaliyyətini dəyərləndirərək, onları dəstəkləyir! Belə ki, şirkət tərəfindən tələbələr üçün təcrübə proqramları və maarifləndirici görüşlər təşkil olunur. Yerli ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq edən şirkət, gənclərin sığorta biliklərinin artırılması məqsədilə, Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin magistrantlarına 1 ay müddətində təcrübə keçmişdir.

İnsan Resurslarının İdarə edilməsi şöbəsnin dəstəyi ilə həyata keçirilən təcrübə müddətində, tələbələrə Məsul Aktuar Aysel Qadirqızı, Aktuar hesablamalar şöbəsinin əməkdaşı Ofeliya Orucova, eləcə də Marketinq və İctimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları Kənan Cəfərov və Murad Mahmudov tərəfindən bir sıra təlimlər keçirilmişdir.

Təlim zamanı şirkətin təqdim etdiyi bir neçə sığorta məhsulu haqqında geniş fikir mübadiləsi aparılaraq, tələbələr müştərilərin ən çox müraciət etdikləri Kasko sığortası, tibbi sığorta, həyatın yığım sığortası, səfər sığortası, həmçinin "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta" növləri haqqında ətraflı məlumatlar verilib.

Görüşdən məmnunluq hissi keçirdiyini bildirən şirkət əməkdaşları, magistrantlara gələcək həyatlarında və karyeralarında uğurlar arzulayıblar.

Magistrantlar isə öz növbəsində səmimi görüşə və göstərilən diqqətə görə minnətdarlıqlarını ifadə ediblər.





# SAT Group-la əməkdaşlıq

Uğurlu korporativ təlimlərimiz silsiləsindən daha biri SAT Group-un təşkilatçılığı ilə baş tutan "Praktiki Satış kursu" oldu. 2 ay ərzində SAT Group-un satış üzrə təmsilçisi Murad Qəhramanlı tərəfindən, şirkətimizin Xüsusi Layihələr, Kiçik və Orta biznes ilə iş şöbələri və Həyat Sığortası məhsullarının satışı şöbəsinin əməkdaşları üçün satış sahəsinə aid dərslər keçirilmişdir. Qeyd edək ki, kursun yekunu olaraq iştirakçılara sertifikatlar təqdim edilib. SAT Group-un təşkilatçılığı ilə həyata keçirilən SAT Forum, müxtəlif kateqoriyalar üzrə satış adamlarını, rəhbərləri və sahibkarları hər il bir araya gətirir. Bir gün ərzində baş tutan forumda "Satış alətləri", "Satış idarəetməsi", "Satışa dəstək olan marketinq" və "Dijital satış strategiyası" haqqında ən cəlbedici mövzuları əhatə edən təhlillər, satışın idarə olunması və satışa dair digər suallar ətrafında fikirlər səsləndirildi. 2 mart tarixində gerçəkləşən SAT Forumda şirkətimiz adından bir qrup rəhbər şəxs və əməkdaşlar iştirak etmişdir. İştirakçılara daim yenilənən satış trendləri və uğurlu satış adamlarının təcrübəsi ilə tanış olmağa, həmçinin bu sahədə keyfiyyətli satış əlaqələri qurmağa imkan verən mövzularda tövsiyyə və məsləhətlər verildi.





# Təbiətə qayğı , Vətənə sevgi deməkdir!

Təbiət bizim sərvətimiz, var-dövlətimiz, eləcə də məişətimizin və həyatımızın bir hissəsidir. Biz onu qorumalı və inkişaf etdirməliyik. Ata-babalarımızdan bizə yadigar qalan  yurdumuz Azərbaycanın ecazkar təbiətini qorumaq, ona sahib çıxmaq və bizdən sonra gələcək nəsillərə ötürmək hər birimizin vətəndaşlıq borcudur.




Bildiyimiz kimi, istifadə edilmiş batareyaların təbiətə qarışması dəhşətli nəticələrə gətirib çıxarır. Ekoloji təhlükəsizliyin təmin olunması, ətraf mühitin çirklənməsinin minimuma endirilməsi məqsədilə hər il olduğu kimi,  bu il də şirkətimiz korporativ sosial məsuliyyət çərçivəsində "İstifadəyə yararsız batareyaların utilizasiyası" layihəsinə start verdi. Marketinq və İctimaiyyətlə Əlaqələr şöbəsinin təşəbbüsü ilə həyata keçirilən layihənin məqsədi ətraf mühitin mühafizəsi, insanların sağlamlığının qorunması, ekoloji tarazlığın bərpası, təkrar emalın təşviqi və tullantıların azaldılması məqsədi daşıyırdı.

"Ataşgah" Sığorta Şirkəti olaraq, hər kəsi təhlükəli və istifadəyə yararsız olan batareyaların məişət tullantılarına qarışdırılmasına yol verməməyə, tullantıların çeşidlənməsi qaydalarına riayət etməyə və batareyalar üçün ayrılan xüsusi qutulardan istifadə etməyə çağırırıq.



# “8 Mart” Beynəlxalq qadınlar günü!

## Dünyanın zərif inciləri!

Azərbaycan qadını bütün dövrlərdə öz istedadı, zəkası, iradəsi və əzmi ilə milli - mənəvi dəyərlərimizin qorunub saxlanması və yaşadılmasında müstəsna xidmətlər göstərmişdir. Keçmişimizin unudulmaz səhifələrindəki möhkəm iradəyə malik görkəmli qadın şəxsiyyətlərimizin yüksək ləyaqətinin və müdrikliyinin daşıyıcıları kimi, müasir Azərbaycan xanımları öz dərin zəkaları və tükənməz daxili potensialları ilə bu gün də xalqa və cəmiyyətə fədakarcasına xidmət edirlər. Azərbaycan qadını bəşəriyyətə ədəbi şəxsiyyətlər, görkəmli elm və sənət adamları, tanınmış siyasi xadimlər bəxş etmişdir!

Ölkəmizdə 1917-ci ildən qeyd edilən “8 mart” Beynəlxalq qadınlar günü ilə əlaqədar olaraq, bu dəfə də şirkətimiz xanım əməkdaşlarını təbrik etmək ənənəsinə sadiq qaldı!

Belə ki, xanım əməkdaşlara şirkət tərəfindən xüsusi hazırlanmış hədiyyələrlə yanaşı, onların foto şəkilləri əks olunmuş maraqlı video çarx, mail vasitəsilə təqdim edilmişdir.







## Daxili Audit Xidmətinin rəhbərindən AZTV-ə müsahibə!

“8 mart” Beynəlxalq Qadınlar günü ilə əlaqədar, “Atəşgah” Sığorta Şirkətinin Daxili Audit Xidmətinin rəhbəri Lamiə Əkbərova Azərbaycan Sığortaçılar Asossasiyasının eksperti qismində Azərbaycan Televiziyasına (AZTV) Azərbaycan Sığortaçılar Asossasiyasının eksperti qismində müsahibə vermişdir.

Müsahibədə xanımların ən çox müraciət etdikləri sığorta məhsullarından söhbət açılıb. Sözügedən məhsullar sırasında Kasko sığortası, HYS, eləcə də DƏİS növləri haqqında danışılıb.

Qeyd edək ki, müsahibə 7 mart tarixində Azərbaycan Televiyasının (AZTV) iqtisadi xəbərlər bölümündə yayımlanıb.



# “Atəşgah” Sığorta Şirkətində Novruz sevinci!

Xalqımızın milli-mənəvi dəyərlərinin formalaşmasında önəmli yeri olan Novruz qədim tarixi köklərə söykənərək, hər il böyük sevinc və təmtəraqla qarşılanmaqdadır.

Novruz «təzə il» , baharın ilk günü deməkdir. Belə ki, qədim dövrlərdən bəri xalqımız Novruzu yeni ilin başlanğıcı hesab edərək, onu bolluq, bərəkət və firavanlıq kimi rəmzləşdirmişdir.
Novruz bizə əcdadlarımızın töhfəsi, onlardan qalan əvəzsiz bir mirasdır.

Bayrama bir ay qalmış insanlar bütün həyatın varlığı üçün vacib olan dörd ünsürü simvolizə edən, dörd çərşənbə axşamını (su, külək ,od, torpaq ) qeyd edirlər.





Hər kəsin böyük səbirsizliklə gözlədiyi Novruz bayramı “Atəşgah” Sığorta Şirkətində də böyük həyəcan və coşğu ilə qeyd edildi.
Bayram əhval-ruhiyyəsi böyük sevinc hissi ilə hər bir əməkdaşın üzündə əks olunurdu. Əlbəttə ki, bu gün Novruz bayramını qalib ölkənin vətəndaşı kimi qeyd etmək, bizləri son dərəcədə qürurlandırır!



# Novruza aid maraqlı faktlar

Çox saylı adət-ənənələri ilə xalqımız üçün xüsusi dəyərə malik olan Novruz, həm də UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə nümayəndəliklərinin siyahısına daxil olunub. Novruz bayramını Azərbaycan xalqı ilə yanaşı bir çox türk və müsəlman dövlətləri də qeyd edirlər. Gəlin müxtəlif dünya ölkələrində bu bayramın necə qeyd olunmasına diqqət yetirək: Qazaxıstanda-Novruz bayramı zamanı dualar oxunar, evlər təmizlənər, insanlar ən gözəl geyimlərini geyinərək bayramı qarşılayarlar. Adətə görə, bayram ərəfəsi evin divarlarına gil qablar atılaraq sındırılır. Qazax xalqının bayram süfrəsində Novruza özəl "Nevruz-köcö" yeməyi hazırlanır, Novruz şorbası isə bayram günü qonşulara paylanır.

Qırğızlar-Novruzun ilk gününə "Nooruz" deyirlər. Bu gün onlar da qazaxlar kimi "Nevruz-köcö" yeməyi bişirirlər. Yemək darı yarması, yaxud bulqurdan hazırlanır. Qırğızlar üçün il gecə ilə gündüzün bir olduğu gündə keçirilən Novruz festivalı ilə başlayır. Yeni il isə martın 21-də qeyd edilir.





Özbəkistanın-Səmərqənd, Buxara, Əndican şəhərlərində bayram tədbirləri Novruzun ilk günündən başlayır və bir həftə davam edir. Özbəklər bayram əyləncələrinə "Seyil əyləncələri" deyirlər. Bayramın birinci günü insanlar çadır-çadır gəzərək bayramlaşar, qonaqlara plov, çay və meyvə paylayarlar. Güləş, at yarışları, xoruz döyüşləri də bu bayrama rəng qatan adətlərdəndir. Bundan başqa teatrlarda Novruzla bağlı səhnələşdirilən əsərlər də xalqın xüsusi marağına səbəb olur.

Türkmənlər isə Novruzdan 1 həftə öncə evlərində bayram təmizliyi edər, bayram üçün Türkmən çörəyi, şekşekə, koko, bovursaq, Türkmən plovu bişirərlər. Altayda da Novruz bayramı martın 21-də keçirilir. Lakin altaylar Novruzu fərqli adətlərlə keçirirlər. Belə ki, "Cılgayak" bayramı adı ilə qeyd edilən bu bayram baharın gəlişi, təbiətin canlanması, yeni bir ilə qədəm qoyulması üçün düzənlənir. Altay türklərinin Novruz - "Cılgayak" bayramları həm keçirilmə ənənəsi, həm də süfrəyə gətirilən nemətlərin çeşidi baxımından digər türk xalqlarından seçilir. Süfrəyə bal qatılmış qatıq, dondurulmuş və ya qurudulmuş ət və s. kimi qeyri-adi təamlar təqdim olunur. Yakutiyada Saxa türklər bu bayramı yazın gəlişi və ilin bərəkətli olması üçün tanrıya şükranlıq bayramı kimi qeyd edir. Şənliyin keçiriləcəyi əraziyə yarım ay qabaqdan ağaclar əkilir. Şamanlar yerə qımız səpərək dualar edirlər. Bu ənənə keçmiş ildə olan pisliklərin qovulması, yeni ildə isə ancaq gözəl günlərin olacağına inam anlamı daşıyır. Gənc qız və oğlanlar ürəyində arzu tutaraq əkilmiş ağaca bir parça bağlayırlar.

Türkiyənin Cənub Şərqi Anadolu bölgəsində - Qaziantep və onun ətrafında 22 mart gününə "Sultan Novruz" adı verilib. Bu bölgədə, eləcə də Qarsda, Azərbaycanda olduğu kimi, qapı pusma, "baca-baca" adətləri indiyə qədər də yaşamaqdadır.







# Xeyirxahlıq, şəfqət və mərhəmət ayı!



Bu ilin ilk rübü Müqəddəs Ramazan ayına təsadüf etməklə də yadda qaldı. Müqəddəs Ramazan ayı müsəlmanlar üçün Hicri tarixinin ikinci ilində (Miladi tarixin 622-ci ilində) müəyyən edilmişdir. Ramazan ayı təzə ayın göründüyü andan başlanır və 29-30 gün davam edir. Bu ayın başlaması ilə sevgi, tolerantlıq, həmrəylik kimi müsbət hisslər ön plana çıxır.

Dini əhəmiyyəti ilə yanaşı, fərdi məsuliyyət, ictimai əməkdaşlıq və həmrəylik hisslərinin ən yüksək olduğu bu ayda, varlı-kasıb, cavan-böyük fərq etmədən bir süfrə arxasında oturmağı, eyni sıralarda birlikdə dayanmağı, ehtiyac sahiblərinə əl tutmağı adət halına gətirilmişdir. Bütün bu yüksək insani keyfiyyətləri və vərdişləri on bir ayın sultanı Ramazan ayında əks etdirərək, ömrün bütün dövrlərinə yaymaqla, eləcə də diqqət mərkəzində saxlamaqla, ailəmizə, dostlarımıza, cəmiyyətimizə və xalqımıza nümunəvi insan olmağı dərk edirik.

Bu hiss və düşüncələrlə müqəddəs Ramazan ayının ölkəmizə bütün gözəllikləri bəxş etməsini arzu edir, sağlıq, xoşbəxtlik və uğur dolu günlər arzulayırıq.

## Ramazan Bayramınız mübarək!



# "Atəşgah" Sığorta Qrupunun Himni

Biz, inama doğru,
Nurlu sabaha yol gedirik.
Və işığa doğru,
Xoş gələcəyə biz baxırıq.
Səadəti, məhəbbəti… səninlə bölüşdük!

*Nəqarət:*
Ürəyimiz bir atəş,
Birgə döyünür ürəyinlə
Qəlbimiz bir səs,
Birgə oxuyur qəlbinlə
Nəbzimiz, könlümüz, arzularımız səninlə
Gülümsə həmişə, Arxayın yaşa!

Biz, inama doğru
Nurlu sabaha yol gedirik
Və işığa doğru
Xoş gələcəyə biz baxırıq
Səadəti, məhəbbəti… səninlə bölüşdük!

*Nəqarət:*
Ürəyimiz bir atəş,
Birgə döyünür ürəyinlə
Qəlbimiz bir səs,
Birgə oxuyur qəlbinlə
Nəbzimiz, könlümüz, arzularımız səninlə
Gülümsə həmişə,
Arxayın yaşa!